# AZƏRBAYCAN RESPUBLİKASININ
# DÖVLƏT STATİSTİKA KOMİTƏSİ
**Sənaye və tikinti statistikası şöbəsi**

# ƏSAS KAPİTALA YÖNƏLDİLMİŞ İNVESTİSİYA GÖSTƏRİCİSİNİN HESABLANMASINA DAİR KEYFİYYƏT MƏRUZƏSİ

**22.04.2013**

Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
hajibalad@azstat.org, + 994 12 538 2139

# Mündəricat


1. Statistik prosesə və məhsullara giriş...................................................... 3

2. Aktuallıq........................................................................................... 5

3. Dəqiqlik............................................................................................ 5

4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə................................ 5

5. Bərabər giriş və aydınlıq...................................................................... 6

6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik.............................................. 8

7. Çıxış keyfiyyət komponentləri arasında seçim.......................................... 8

8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi.................. 9

9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük...................................... 9

10. Məxfilik, şəffaflıq və təhlükəsizlik.......................................................... 9

11. Yekun.............................................................................................. 9

## 1. Statistik prosesə və məhsullara giriş

### *Müşahidənin qısa təsviri*

Sənaye və tikinti statistikası şöbəsi inşaat işlərinə yönəldilmiş ümumi investisiyanın, xarici və daxili mənbələrdən yönəldilmiş vəsaitlərin, neft və qeyri-neft sektoruna yönəldilmiş investisiyalar və artım sürəti, xarici ölkələr üzrə əsas kapitala yönəldilmiş investisiyalar, iri, orta və kiçik sahibkarlar tərəfindən əsas kapitala yönəldilmiş investisiyaların həcmi, iqtisadiyyatın aparıcı sahələrinin inkişafına yönəldilmiş (sənaye, kənd təsərrüfatı, nəqliyyat, rabitə) investisiyaların həcmi, daxili və xarici investisiyaların iqtisadiyyatın sahələri üzrə və mülkiyyət növləri üzrə bölgüsünə dair göstəricilərin müşahidəsini aparır. Maliyyə mənbələri üzrə xüsusi maliyyə resursları və investorların təsərrüfat daxili ehtiyatları, həmçinin investorların istiqraz və cəlb edilmiş maliyyə vasitələri, müəyyənləşdirilmiş qaydada müəssisə birlikləri (ittifaqları) tərəfindən mərkəzləşdirilmiş pul vasitələri, o cümlədən Azərbaycan Respublikasında Dövlət büdcəsindən investisiya ayırmaları, ölkə daxilindəki muxtar respublika büdcəsi, yerli büdcə və uyğun qeyri-büdcə fondları, xarici investisiyalar hesabına həyata keçirilən investisiyalar müşahidə olunur.

### *Müşahidə vahidləri*

İnvestisiyaların həcminin uçota alınması məqsədi ilə tabeliyindən və mülkiyyət növündən asılı olmayaraq müvafiq olaraq əsas kapitala investisiya yönəldən, tikililərin və obyektlərin inşasını həyata keçirən (maliyyələşdirən) sifarişçi müəssisə və təşkilatlar (əsas kapitala investisiya yönəltmiş bələdiyyələrə, investisiyadan mərkəzləşdirilmiş qaydada istifadə edən şirkətlərə, nazirliklərə, komitələrə, baş idarələrə və s.) üzrə statistik müşahidələr aparılır. Eyni zamanda şəhər, qəsəbə və rayon icra hakimiyyəti orqanları tərəfindən təqdim edilən hesabat formaları vasitəsilə şəhərlərdə, qəsəbələrdə və kənd yaşayış məntəqələrində əhalinin şəxsi vəsaiti hesabına tikilib istifadəyə verilmiş evlərə dair məlumatlar uçota alınır.

### *Əhatə*

İqtisadi Fəaliyyət Növlərinin Təsnifatına (İFNT) görə tikinti fəaliyyəti F seksiyasından ibarətdir. Bu seksiya binaların tikintisi, mülki təyinatlı inşaat işləri və ixtisaslaşdırılmış tikinti işləri kimi tikinti fəaliyyətləri ilə əhatə olunur.

### *Əsas göstəricilər:*

- Əsas fondların istifadəyə verilməsi;
- Əsas kapitala yönəldilmiş investisiyalar;


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə:hajibalad@azstat.org, +994 12 538 21 39

- Tikinti-quraşdırma işlərinin həcmi;
- Daxili investisiyalar;
- Xarici investisiyalar.

***Əsas statistik məlumatlar:***
- Əvvəlki ilin müvafiq ayına nisbətən indekslər;
- Əvvəlki ilin müvafiq dövrünə nisbətən indekslər;
- Əvvəlki ilə nisbətən indekslər.

***Sorğu vərəqəsi***

İnvestisiyaların həcminin hesablanmasında əsas məlumat bazası kimi "Obyektlərin, əsas fondların istifadəyə verilməsi və əsas kapitala yönəldilmiş investisiyalar haqqında "2-investisiya nömrəli aylıq və illik, "İstifadəyə verilmiş əsas fondların, yaşayış evlərinin, sosial-mədəni tikililərin və əsas kapitala yönəldilmiş vəsaitlərin regionlar üzrə bölgüsü"nə dair 2-investisiya nömrəli aylıq və illik statistik hesabat formalarına müvafiq olaraq rüblük və illik əlavələr və "Əhalinin vəsaiti hesabına tikilmiş yaşayış evlərinin və qeyri-yaşayış tikililərinin istifadəyə verilməsi haqqında" 1-YET (əhali) №-li rüblük statistika hesabatlarının məlumatlarından istifadə edilir. 2-investisiya nömrəli aylıq və illik statistik hesabatları əsas kapitala yönəldilmiş investisiyalardan mərkəzləşdirilmiş qaydada istifadə edən nazirlik, şirkət və səhmdar cəmiyyətlər, icmal hesabatı hesabat ayından sonrakı ayın 5-ci iş günündən gec olmayaraq, kiçik sahibkarlıq subyekti olmayan hüquqi şəxslər (xarici və müştərək müəssisələr kiçik sahibkarlıq sektoruna mənsubluğundan asılı olmayaraq) aylıq dövriliklə hesabat ayından sonrakı ayın 5-ci iş gününün birinci yarısınadək, hüquqi şəxs olan kiçik sahibkarlıq subyektləri və bələdiyyələr rüblük dövriliklə hesabat rübündən sonrakı ayın 20-dək yerləşdiyi ərazinin statistika orqanına və ya elektron formada real-vaxt rejimində təqdim edirlər. 2-investisiya nömrəli aylıq hesabata əlavəni əsas kapitala yönəldilmiş vəsaitdən mərkəzləşdirilmiş qaydada istifadə edən nazirlik, komitə, şirkət və səhmdar cəmiyyətlər hesabat dövründən sonrakı ayın 8-ci iş günündə, illik hesabata əlavəni isə fevral ayının 15-dək, 1-YET (əhali) №-li rüblük statistika hesabatı şəhər, qəsəbə və rayon icra hakimiyyəti orqanları tərəfindən hesabat rübündən sonrakı ayın 2-dən gec olmayaraq yerləşdiyi ərazinin statistika orqanına və ya elektron formada təqdim edirlər.


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə:hajibalad@azstat.org, +994 12 538 21 39

## 2. Aktuallıq

İnvestisiyaların həcminin hesablanması beynəlxalq standartlara və tələblərə uyğun, dünya təcrübəsinə əsaslanaraq, ölkənin xüsusiyyətləri nəzərə alınmaqla aparılır. Hesablamaların nəticələrinə əsasən alınmış çıxış cədvəlləri istifadəçilərin tələbatlarının ödənilməsinə xidmət edir.

## 3. Dəqiqlik

İnvestisiyaların həcminin hesablanması və qarşıya qoyulan vəzifələrin keyfiyyətli həlli üçün, Sənaye və tikinti statistikası şöbəsi ilk növbədə yerli statistika orqanlarından qəbul edilən ilkin məlumatların keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mütəmadi olaraq metodoloji işləri davam etdirir. Yerli statistika orqanlarının əməkdaşları mütəmadi olaraq seminarlarda iştirak edir və hər hansı metodoloji yeniliklər baş verərsə onlar operativ olaraq məlumatlandırılırlar.

***D2. Əhatə olunma üzrə xətanın səviyyəsi***

*Cədvəl № 1*

| | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|
| Hesabatı təqdim edən statistik vahidlərin siyahısında vahidlərin sayı | 1090 | 1037 | 1036 | 894 | 870 |
| Münasib olmayan statistik vahidlərin sayı | 0 | 0 | 0 | 0 | 0 |
| Əhatə olunma üzrə xətanın səviyyəsi (%) | ... | ... | ... | ... | ... |

## 4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin “Yerli statistika orqanları üçün statistik işlər proqramı”na əsasən yerli statistika orqanlarından ilkin məlumatlar hesabat dövründən sonrakı ayın 5-ci iş günü toplanır. Əldə olunan ilkin məlumatlar dərhal təhlil olunur və bu təhlil əsasında investisiyanın ümumi həcmi hesablanır. Hesablamanın nəticəsinə əsasən yekun məlumatlar hazırlanır.


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə:hajibalad@azstat.org, +994 12 538 21 39

*2013-cü ili əhatə edən bir neçə ay üzrə* ***V2 (hesabat dövrünün sonuncu günündən son nəticələrin nəşr gününə qədər günlərin sayı)*** *göstəricisi (son nəticələrin vaxtlı-vaxtında olması)*

***Cədvəl № 2***

| Hesabat dövrü | 30.01.2013 | 28.02.2013 | 30.03.2013 |
|---|---|---|---|
| Nəşr tarixi | 18.02.2013 | 14.03.2013 | 16.04.2013 |
| Aralıq vaxt (laq), təqvim günü | 19 gün | 14 gün | 17 gün |
| Aralıq vaxt (laq), iş günü | 13 gün | 9 gün | 12 gün |

*2013-cü ili əhatə edən bir neçə ay üzrə* ***V3*** *göstəricisi (nəşrin tam vaxtında yerinə yetirilməsi)*

***Cədvəl № 3***

| Hesabat dövrü | 30.01.2013 | 28.02.2013 | 30.03.2013 |
|---|---|---|---|
| Elan edilmiş nəşr tarixi | 18.02.2013 | 14.03.2013 | 16.04.2013 |
| Faktiki nəşr tarixi | 11.02.2013 | 13.03.2013 | 11.04.2013 |
| Aralıq vaxt (laq) | -7 | -1 | -5 |

## 5. Bərabər giriş və aydınlıq

İnvestisiyaların həcmi üzrə yekun məlumatlar hazırlandıqdan sonra istifadəçilərin tələbatlarının ödənilməsi məqsədi ilə bir neçə yayım vasitəsindən istifadə olunur. Belə ki, yekun məlumatların hesablanması prosesi yekunlaşdıqdan sonra press-reliz, aylıq və illik məlumatlar əks olunmuş bülleten, BVF-nin xüsusi standartları üzrə hazırlanmış cədvəllər, illik məlumatlar əks olunmuş statistik məcmuə Komitənin veb-səhifəsində PDF formatında əks olunur. İllik məlumatlar Komitənin veb-səhifəsindəki statistik məlumat bazası bölməsində də yerləşdirilir. http://www.azstat.org/MESearch/search?departament=4&lang=az. Bundan əlavə göstəricilər və hesabat formalarına dair metaməlumatlar, həmçinin digər metodoloji izahlarda mövcuddur (http://www.stat.gov.az/menu/7/)


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə:hajibalad@azstat.org, +994 12 538 21 39

*Nəticələrin yayımlanması üçün istifadə olunan vasitələr*

| Sıra №-si | Vasitə | Əldə edilmə yeri |
|---|---|---|
| 1 | Dövlət Statistika Komitəsinin veb-saytı | www.stat.gov.az |
| 2 | Ekspress məlumatlar, press-relizlər | www.stat.gov.az |
| 3 | Nəşr olunan bülletenlər | http://www.stat.gov.az/source/construction/ |
| 4 | Nəşr olunan statistik məcmuələr | http://www.stat.gov.az/source/construction/ |
| 5 | Məlumat bazası | http://www.azstat.org/MESearch/search?departament=4&lang=az |
| 6 | Dövlət statistika orqanlarına göndərilən sorğulara cavablar | - |
| 7 | "Azərbaycan rəqəmlərdə" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| 8 | "Azərbaycanda tikinti" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| 9 | "Azərbaycanın statistik göstəriciləri" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| 10 | "Azərbaycan faktlarla" | - |

### *BA1. Kağız məruzələr üçün abunələrin və sifarişlərin sayı*

İnvestisiyaların həcminə dair məlumatlar kağız formasında Sənaye və tikinti statistikası şöbəsi tərəfindən hazırlanan "Tikintinin əsas göstəriciləri" adlı illik statistik bülleten vasitəsilə təqdim olunur. Bülleten ümumi olaraq 41 nüsxə çap olunur ki, onlardan:

- 29 nüsxəsi müxtəlif nazirliklərə və digər dövlət orqanlarına;
- 2 nüsxə Naxçıvan MR-nın Dövlət Statistika Komitəsinə və Bakı (şəhər) statistika idarəsinə;
- 10 nüsxə Dövlət Statistika Komitəsində digər şöbələrə paylanılır.

### *BA2.Onlayn məlumat bazasına girişlərin sayı*

http://www.stat.gov.az/link_click_counter/-də tikinti statistikası məhsulundan istifadəçilərin istifadə %-ləri daimi əks etdirilir.


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə:hajibalad@azstat.org, +994 12 538 21 39

## 6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik

İnvestisiyaların həcminin hesablanması beynəlxalq standartlara və tələblərə cavab verən ümumi nəzəriyyəyə, ölkənin spesifik, fərqli xüsusiyyətləri nəzərə alınmaqla hazırlanmış milli təsnifatlara əsaslanmaqla tərtib edilmiş metodoloji göstərişlər əsasında aparılır.

### *UM1. Verilmiş dinamika sırasının uzunluğu*

İnvestisiyaya dair məlumatların nəticələri dinamika sıralarında əks etdirilir. Dinamika sıralarında Azərbaycan Respublikası üzrə əsas kapitala yönəldilmiş investisiyalar, tikinti-quraşdırma işlərinin həcmi, daxili investisiyalar və xarici investisiyalar üzrə göstəricilər əks olunur. İnvestisiyalar üzrə indekslər aylıq, rüblük, artan yekunla və illik dövrülükdə hesablanır.

Dinamika sıralarında aşağıdakı indekslər əks etdirilir:

- Aylıq indeks;
- Rüblük indeks;
- İllik indeks.

## 7. Çıxış keyfiyyət komponentləri arasında seçim

Şöbə investisiyaların həcminin hesablanması zamanı bütün keyfiyyət aspektlərinin ayrı-ayrılıqda yaxşılaşdırılması üçün mümkün imkanlardan istifadə edir və bu sahədə müsbət nəticələrin alınması istiqamətində işlərini davam etdirir. Belə ki, aktuallıq aspekti üzrə məlumatların yığımı, emalı və yayılması zamanı operativlik hər zaman gözlənilir. Dəqiqlik aspekti üzrə ilkin məlumatların toplanmasına daim nəzarət edilir və mütəmadi olaraq məlumatların dürüstlüyü yoxlanılır. Vaxtlı-vaxtında olma aspekti üzrə hər ilin əvvəlində göstəricilərin yayımlanması barədə təqvim hazırlanaraq Komitənin internet səhifəsində yerləşdirilir. Təqvimə uyğun olaraq göstəricilər haqqında məlumatlar tikinti bölməsi üzrə hər ay veb-səhifədə yerləşdirilir.


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə:hajibalad@azstat.org, +994 12 538 21 39

## 8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi

Şöbə tərəfindən istifadəçilərlə hər il mütəmadi olaraq görüş keçirilir. Görüşdə istifadəçilərin tələbatlarının ödənilməsi məqsədi ilə onlar tərəfindən verilən təkliflər mümkün qədər nəzərə alınır, tələbatın ödənilməsi istiqamətində növbəti illərdə şöbə öz işini qurur.

## 9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük

Rəsmi statistikanın keyfiyyətliliyini və ictimaiyyətin statistikaya inamını təmin etmək üçün bu sahədə proqramların həyata keçirilməsi üzrə işlərin təşkili və aparılması statistika məlumatlarının düzgünlük, obyektivlik, müasir şəraitə uyğunluq, məxfilik və şəffaflıq prinsipinə əsaslanır.

Şöbə tərəfindən investisiyaların həcminin hesablanması üçün tərtib olunan hesabatlara hər il yenidən baxılır, aktuallığını itirmiş göstəricilərin hesabatlardan çıxarılır və ya əksinə istifadəçilərdə tələbat yaratmış göstəricilər hesabatlara əlavə edilir.

## 10. Məxfilik, şəffaflıq və təhlükəsizlik

Rəsmi statistikanın aparılması üçün yığılan, işlənən və məlumatlar bazasına daxil edilən, birbaşa və ya dolayı yolla statistik vahidlərin tanınmasına və beləliklə də, ilkin məlumatların əldə edilməsinə imkan verən hüquqi və fiziki şəxslərin ilkin statistik məlumatları konfidensial sayılır və statistik sirdir. Bu baxımdan da şöbə ilkin məlumatların məxfiliyinin qorunmasını daim izləyir və bu sahədə lazımi tədbirlər görür.

## 11. Yekun

İnvestisiyaların həcminin hesablanmasının proseslər üzrə daha keyfiyyətli qurulması məqsədi ilə uçotun dəqiq və mükəmməl aparılması məqsədi ilə gələcəkdə bu sahənin proqramlaşdırılması və keyfiyyətinin yüksəldilməsi istiqamətində işlərin davam etdirilməsi məqsədəuyğun hesab edilir.


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə:hajibalad@azstat.org, +994 12 538 21 39